**AZƏRBAYCAN RESPUBLİKASININ**

# NAZİRLƏR KABİNETİ

## Q Ə R A R

**№ 52**

**Bakı şəhəri, 14 fevral 2019-cu il**

## "Azərbaycan Respublikası Vergilər Nazirliyinin elektron informasiya sisteminə real vaxt rejimində qoşulmalı olan "Nəzarət-kassa aparatlarının tətbiqi Qrafiki"nin təsdiq edilməsi haqqında

"Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1356-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 dekabr tarixli 414 nömrəli Fərmanının 1.2.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

"Nəzarət-kassa aparatlarının tətbiqi Qrafiki" təsdiq edilsin (əlavə olunur).

**Azərbaycan Respublikasının**
**Baş naziri** **Novruz Məmmədov**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 14 fevral tarixli 52 nömrəli Qərarı ilə **təsdiq edilmişdir.**

## Nəzarət-kassa aparatlarının tətbiqi

## QRAFİKİ

| Mərhələlər | Təsərrüfat subyektlərinin (obyektlərinin) təsnifatı | Bakı şəhəri | Gəncə şəhəri | Sumqayıt şəhəri | Abşeron, Mingəçevir, Şirvan, Şəki, Lənkəran, Yevlax, Bərdə, Naxçıvan, Quba, Xaçmaz, Masallı, Göyçay, Şamaxı, Zaqatala, Şəmkir, Tovuz, Salyan, Sabirabad, Naftalan, şəhər və rayonları (kənd və qəsəbələr istisna olmaqla) | Digər rayon mərkəzləri (kənd və qəsəbələr istisna olmaqla) | Azərbaycan Respublikasının bütün kənd və qəsəbələri |
|---|---|---|---|---|---|---|---|
| **1** | **2** | **3** | **4** | **5** | **6** | **7** | **8** |
| I mərhələ 2019-cu il 1 iyul tarixədək | iri ticarət mərkəzləri (“Mall” tipli) | 2019-cu il 1 iyul tarixədək | 2019-cu il 1 oktyabr tarixədək | 2019-cu il 1 oktyabr tarixədək | 2019-cu il 1 oktyabr tarixədək | 2019-cu il 1 oktyabr tarixədək | 2019-cu il 1 oktyabr tarixədək |
| | şəbəkə sistemli marketlər | 2019-cu il 1 iyul tarixədək | 2019-cu il 1 iyul tarixədək | 2019-cu il 1 iyul tarixədək | 2019-cu il 1 oktyabr tarixədək | 2019-cu il 1 oktyabr tarixədək | 2019-cu il 1 oktyabr tarixədək |
| | yanacaqdoldurma məntəqələri | 2019-cu il 1 iyul tarixədək | 2019-cu il 1 iyul tarixədək | 2019-cu il 1 iyul tarixədək | 2019-cu il 1 oktyabr tarixədək | 2019-cu il 1 oktyabr tarixədək | 2019-cu il 1 oktyabr tarixədək |
| II mərhələ 2019-cu il 1 oktyabr tarixədək | Ixtisaslaşmış qaydada avtomobil satışını həyata keçirən vergi ödəyiciləri | 2019-cu il 1 iyul tarixədək | 2019-cu il 1 oktyabr tarixədək | 2019-cu il 1 oktyabr tarixədək | 2019-cu il 1 oktyabr tarixədək | 2019-cu il 1 oktyabr tarixədək | 2019-cu il 1 oktyabr tarixədək |
| | şadlıq evləri | 2019-cu il 1 iyul tarixədək | 2019-cu il 1 oktyabr tarixədək | 2019-cu il 1 oktyabr tarixədək | 2019-cu il 1 oktyabr tarixədək | 2019-cu il 1 oktyabr tarixədək | 2019-cu il 1 oktyabr tarixədək |
| | mebel satışı üzrə ixtisaslaşmış müəssisələr | 2019-cu il 1 oktyabr tarixədək | 2019-cu il 1 oktyabr tarixədək | 2019-cu il 1 oktyabr tarixədək | 2019-cu il 1 oktyabr tarixədək | 2019-cu il 1 oktyabr tarixədək | 2019-cu il 1 oktyabr tarixədək |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
|---|---|---|---|---|---|---|---|
| III mərhələ 2020-ci il 1 yanvar tarixədək | Əlavə Dəyər Vergisi ödəyicilərinin pərakəndə ticarət və (və ya) ictimai iaşə fəaliyyəti üzrə təsərrüfat subyektləri (obyektləri) | 2020-ci il 1 yanvar tarixədək | 2020-ci il 1 yanvar tarixədək | 2020-ci il 1 yanvar tarixədək | 2020-ci il 1 yanvar tarixədək | 2020-ci il 1 yanvar tarixədək | 2020-ci il 1 yanvar tarixədək |
| IV mərhələ 2022-ci il 31 dekabr tarixədək | digər pərakəndə ticarət və (və ya) ictimai iaşə fəaliyyəti üzrə təsərrüfat subyektləri (obyektləri) | 2021-ci il 1 aprel tarixədək | 2021-ci il 1 aprel tarixədək | 2021-ci il 1 aprel tarixədək | 2021-ci il 1 oktyabr tarixədək | 2021-ci il 31 dekabr tarixədək | 2022-ci il 31 dekabr tarixədək |

**Qeyd.**

1. Bu Qrafik təsdiq edilənədək vergi uçotuna alınmış vergi ödəyiciləri tərəfindən istismar edilən nəzarət-kassa aparatları Qrafikdə müəyyən edilmiş müddətədək istifadə edilməli və qeyd edilən müddətdən sonra həmin nəzarət-kassa aparatları Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi meyarlara cavab verən, Azərbaycan Respublikası Vergilər Nazirliyinin elektron informasiya sisteminə real vaxt rejimində qoşulması nəzərdə tutulan nəzarət-kassa aparatları ilə əvəz edilməlidir.

2. Bu Qrafik təsdiq edildikdən sonra yeni uçota alınan təsərrüfat subyektlərində (obyektlərində) Qrafikə uyğun olaraq, quraşdırılacaq nəzarət-kassa aparatları Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi meyarlara cavab verməli və Azərbaycan Respublikası Vergilər Nazirliyinin elektron informasiya sisteminə real vaxt rejimində qoşularaq istifadə edilməlidir.